**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU**

*Əlyazması hüququnda*

**NURLANA QƏRİB qızı HƏMZƏYEVA**

# XIX – XX ƏSRLƏRDƏ GƏNCƏ ŞƏHƏRİNİN ƏNƏNƏVİ MADDİ MƏDƏNİYYƏTİ
**(tarixi – etnoqrafik tədqiqat)**

5102.01 – Etnoqrafiya və etnologiya

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2017**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun «Müasir dövr etnoqrafiyası» şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Nərgiz Məlik qızı Quliyeva**
tarix üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Fəzail İmran oğlu Vəliyev**
tarix üzrə elmlər doktoru

**Şəhla Tofiq qızı Nuruzadə**
tarix üzrə fəlsəfə doktoru

**Aparıcı elmi müəssisə:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin «Ümumi tarix» kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun nəzdində 5102.01 – Etnoqrafiya və etnologiya ixtisası üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən F/D 01.171 Dissertasiya Şurasının «____»_________ 2017- ci il tarixli iclasında saat «____» -da кeçiriləcəkdir.

**Ünvan:** AZ. 1143, Bakı şəhəri, Hüseyn Cavid prospekti 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «____»___________ 2017- cı ildə göndərilmişdir.

F/D **01.171**
**Dissertasiya Şurasının**
**elmi katibi:** **Səfər Hüseyn oğlu Aşurov**
*tarix üzrə fəlsəfə doktoru*

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Şəhər etnoqrafiyasının tədqiqi müasir Azərbaycan elminin tərkib hissələrindən biri kimi mühüm nəzəri və təcrübi əhəmiyyət kəsb edir. Onların formalaşması və inkişafında başlıca rol oynayan bir sıra amillərin, o cümlədən şəhərlərin coğrafi mövqeyi, sosial-iqtisadiyyatı, təsərrüfat həyatı, maddi mədəniyyəti, beynəlxalq əlaqələri və s. bu kimi azərbaycanlılara məxsus şəhər mədəniyyətinin ümumi və fərqli cəhətlərinin tədqiqi müasir Azərbaycan etnoqrafiya elminin aktual problemlərindən biridir. Məlumdur ki, təbii–coğrafi və tarixi şərait şəhər mədəniyyətində bir sıra spesifik xüsusiyyətlər formalaşdırır. Bunları aşkara çıxarmaq şəhər mədəniyyətinin öyrənilməsində mühüm elmi əhəmiyyət kəsb edir. Ənənəvi maddi mədəniyyət nümünələrinin formalaşmasında və zənginləşməsində şəhər mühitinin xüsusi yeri olduğunu nəzərə alsaq bu problemin nə dərəcədə aktual olduğunu başa düşmək olar. Hər bir tarixi – etnoqrafik bölgənin şəhər mədəniyyətində spesifik xüsusiyyətlər mövcuddur. Aydındır ki, dünyada gedən qloballaşma prosesləri şəhər mədəniyyətinin bəzi lokal xüsusiyyətlərini sıradan çıxarmaqdadır. Bu baxımdan da ənənəvi şəhər mühitini tədqiq etmək zərurəti öz əhəmiyyətini saxlamaqdadır. Şəhərlərdə formalaşan mədəni irsin öyrənilməsi, bilavasitə xalqın məişət və mədəniyyətində gedən etnomədəni prosesləri izah etməyə imkan verir. Məlumdur ki, sovetlər dönəmində əsas diqqət tarixi şəhərlərə yox, sosialist şəhərlərinin öyrənilməsinə yönəldilmişdir. Zəngin tarixi keşmişə malik olan Gəncə əhalisinin mədəni irsinin xüsusi tədqiqat obyekti kimi seçilməsini labüd edən cəhətlərdən biri də məhz bununla bağlıdır. Maddi mədəniyyət elementlərinin müxtəlifliyi baxımından Gəncə şəhəri Azərbaycanın yaşayış məskənləri arasında xüsusi yer tutur. Buradakı maddi mədəniyyət nümunələri azərbaycanlıların şəhər etnoqrafiyasının zənginliyindən xəbər verir. Tarixən formalaşan tolerantlıq və multikultural dəyərlər Gəncədə şəhər mühitinin yaranmasına öz töhfəsini vermişdir. Tədqiqatı əhəmiyyətli edən amillərdən biri də, məhz Gəncənin maddi mədəniyyətinə xas olan spesifik xüsusiyyətləri aşkar etmək və Ümumazərbaycan şəhər mədəniyyətində onun tutduğu mövqeyi müəyyənləşdirməkdən ibarətdir.

Məlumdur ki, maddi və mənəvi dəyərlər ümumilikdə hər bir xalqın mədəniyyətini formalaşdırır. Bu baxımdan hər bir maddi prosesdə mənəvi, hər bir mənəvi yaranışda isə maddi xüsusiyyətlər öz əksini tapır. Lakin bütün bunlarla yanaşı, mənəvi dəyərlərin yaranış fonunda müəyyənləşən maddi təməlin olması zəruridir. Belə bir təməlin formalaşması şəhər mədəniyyətinin atributu kimi qiymətləndirilməlidir. Çünki maddi

dəyərlərin həyatiliyi, bir növ şəhər mühitinin inkişafında mühüm əhəmiyyət kəsb edir. Təbii ki, təsərrüfat məişətinin müxtəlifliyi olmadan maddi mədəniyyətin spesifikasını düşünmək qeyri – obyektivlik olardı. Bu baxımdan kənd həyatının o cümlədən əkinçilik, maldarlıq, balıqçılıq və s. sahələrin olması, maddi mədəniyyətin təkamülünə də öz müsbət təsirini göstərir. Nəzərə alsaq ki, vaxtilə Gəncə şəhərinin formalaşmasında qəsəbə tipli kənd mühitinin xüsusi rolu olmuş və bu da nəticədə tarixən zəngin maddi mədəniyyət çeşidlərinin formalaşmasına gətirib çıxatrmışdır. Bu çeşidlərin səciyyəvi xüsusiyyətlərini, əsasən milli geyimlərdə, bəzəklərdə, milli mətbəxdə, evlərin daxili sahmanında və s. müşahidə etmək mümkündür. Problemin aktuallığını şərtləndirən amillərdən biri də maddi dəyərlərin formalaşmasında əhəmiyyətli rol oynayan azərbaycançılıq ideologiyasının dövlət səviyyəsində dəyərləndirilməsidir. Bu gün müstəqil Azərbaycan Respublikasının milli – mənəvi və maddi meyarlarının daha çox diqqət mərkəzinə çəkildiyi, həmin irsə dövlət səviyyəsində qiymət verildiyi bir zamanda, bu dəyərlərin öyrənilməsinə xüsusi həssaslıq, diqqət və vicdanla yanaşmaq prinsipi də mövzunun əhəmiyyətini artırır. Ümummilli liderimiz Heydər Əliyev öz çıxışlarında milli – mənəvi dəyərlərə vətəndaşlıq mövqeyindən yanaşaraq bildirirdi ki, milli ideologiyanın əsasını milli – mənəvi dəyərlər təşkil edir. Bu fenomen əsrlər boyu xalqın həyat tərzində mühüm rol oynamışdır. Məhz bu baxımdan yüzilliklər boyu formalaşan şəhər mədəniyyətinin öyrənilməsi və buradakı maddi mədəniyyət nümunələrini araşdıraraq ərsəyə gətirilməsi milli – mənəvi dəyərlərin öyrənilməsinə xidmətdir. Şəhər mədəniyyətinin formaca milli, məzmunca çoxmədəniyyətli olması uzun tarixi inkişaf prosesi nəticəsində əldə edilmişdir. Bu baxımdan əldə edilən maddi dəyərləri qoruyub saxlamaq, gələcək nəsillərə və dünya xalqlarına ərməğan etmək vacibdir. Bu mənada Gəncənin keçmiş mədəni irsinin tədqiqi həm də əməli əhəmiyyət kəsb edir.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Tədqiqat işinin başlıca məqsədi XIX – XX əsrlərdə Gəncənin maddi mədəniyyətini kompleks şəkildə araşdıraraq tarixi–etnoqrafik tədqiqata cəlb etməkdir. Bunun üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsinə cəhd edilmişdir;

- maddi mədəniyyətin formalaşmasında təbii-coğrafi və tarixi şəraitin, təsərrüfat məişətinin rolunu aşkar etmək;
- şəhərsalmada milli–memarlıq ənənələri, şəhər əhalisinin etnik tərkibi, ictimai–iqtisadi, siyasi amillər, vaxtaşırı və gündəlik ənənəvi şəhər–kənd miqrasiyaları, onun müasir şəraitə transformasiyasının etnoqrafik səciyyəsini göstərmək;

- xalq yaşayış evlərinin tip və formalarının təsnifatı, inşaat texnikası, texnologiyası, evlərin daxili sahmanı, qızdırma, işıqlandırma vasitələri haqqında məlumat vermək;

- şəhərə məxsus geyim və bəzək nümunələrinin spesifik – məhəlli xüsusiyyətləri və onların Ümumazərbaycan mədəniyyətində yerini, bu proseslərə etnomədəni faktorların təsirini araşdırmaq;

- ənənəvi yemək və içkilərin sosial şərait və təsərrüfat məşğuliyyətinin xarakteri ilə bağlılığını, qidalanma sistemində şəhərə məxsus etno – lokal xüsusiyyətləri göstərmək;

- şəhərin formalaşmasında müəyyən rol oynayan müxtəlif sosial qruplara mənsub olan əhalinin şəhər mədəniyyətinin zənginləşməsində rolunu və ümumilikdə Azərbaycan mədəni mühitində oxşar və fərqli maddi mədəniyyət nümunələrinin yaranmasının təbii proses olduğunu müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın xronoloji çərçivəsi.** XIX- XX əsrləri əhatə edən toplanmış çöl etnoqrafik materialları, mövcud elmi ədəbiyyat, praktik tədqiqatlar hələ də bəzi mədəniyyət nümunələrinin bugünədək gəncəlilərin məişətdə saxlanılmasından xəbər verir. Tarixilik prinsipi nəzərə alınmaqla şəhərin ənənəvi mədəniyyətinin müasir mədəniyyətə sirayət edilməsi faktı maddi mədəniyyət sahələrində etnoqrafik varisliyin olmasını təsdiq edir. Təsadüf deyil ki, gəncəlilərin etnik özünəməxsusluğu onun mətbəxində, milli geyimlərində, mənəvi dəyərlərində özünü qabarıq göstərir. Bu baxımdan tədqiqatın müasir dövrdə araşdırılması da, şəhər mədəniyyətinin inkişaf meyllərini etnoqrafik nöqteyi – nəzərdən müəyyənləşdirməyə kömək edir.

**Tədqiqatın obyekti və predmeti.** Qədim və erkən orta əsrlərdən etibarən Gəncə mühüm sənət və ticarət mərkəzi kimi ölkənin mədəni həyatında xüsusi yer tutub. Bu baxımdan tədqiqatın obyekti şəhər mədəniyyəti olduğundan çalışılıb ki, eyni zamanda şəhərlərarası münasibətlərə də nəzər yetirilsin. Tədqiqata cəlb olunan əsas maddi mədəniyyət sahələri Gəncə şəhərindən toplanmış çöl etnoqrafik materialları əsasında araşdırılır və şəhər əhalisinin maddi mədəniyyətinin məhəlli tarixinin etnoqrafik səciyyəsi verilir. Tədqiqatın predmeti olan maddi mədəniyyət sahələrinin araşdırılmasında başlıca məqam mövcud tarixi - ədəbiyyat və çöl etnoqrafik şəraitində toplanmış materiallarından çıxış etmək, müxtəlif tarixi dövrlərdə formalaşan hər bir maddi mədəniyyət elementinin formalaşmasını araşdırmaqdan ibarətdir. Bu gün də müxtəlif maddi mədəniyyət nümunələrinin xalq tərəfindən qorunub saxlanılmasını müşahidə etmək mümkündür. Bəzi maddi mədəniyyət nümunələri tarixi

təkamüldə dəyişikliyə uğrasa da, onların mövcud durumu yenidən bərpa edilərək məişətə daxil olmasına rəvac verir. Bunu əsasən yemək və içkilərdə, bəzəklərdə, evlərin tikilişində və s. bu kimi maddi mədəniyyət nümunələrində görmək mümkündür.

**Problemin öyrənilməsi tarixindən.** Şəhərin qədim və zəngin maddi mədəniyyət tarixini tədqiq etmək üçün faktiki olaraq mənbəşünaslıq bazasını etnoqrafik maddi mədəniyyət nümunələri, arxeoloji qazıntılardan aşkar olunan materiallar, muzey eksponatları, şəxsi kolleksiyalar, miniatürlər, divar rəsmləri, əhalinin müasir məişətində qalmış arxaik yaşayış vasitələri təşkil edir. Bunların bir qismi arxeoloji, digər qismi isə çöl şəraitində müşahidə yolu ilə əldə olunan materiallardır.

Azərbaycanın Qərb bölgəsinin maddi mədəniyyət tarixinin etnoqrafik aspektdən elmi əsaslarla öyrənilməsi keçmiş Sovet hakimiyyəti illərinə təsadüf edir. Bu işdə 1923-cü ildə təsis edilmiş Azərbaycanı Tədqiq və Təttəbbö Cəmiyyətinin fəaliyyəti xüsusi bir mərhələ təşkil edir. Öz qarşısına Azərbaycanı elmi baxımdan hərtərəfli və dərindən tədqiq edib öyrənməyi məqsəd qoyan həmin cəmiyyətin üç şöbəsindən biri "Tarix və etnoqrafiya" adlanırdı. Azərbaycanı tarixi və etnoqrafik cəhətdən elmi əsaslarla tədqiq etməyə başlayan bu şöbənin işində o zamanki milli ziyalılarla yanaşı başqa görkəmli alimlər də yaxından iştirak etmişlər. Cəmiyyətin fəaliyyəti dövründə arxeologiya və etnoqrafiya sahəsində Ə.K.Ələkbərov, Q.T.Qaraqaşlı, D.P.Şərifov, İ.M.Cəfərzadə, S.M.Qazıyev kimi ilk milli kadrlar mühüm rol oynamışlar. Bu vaxtadək Azərbaycanın yeni dövr geyimləri, xalq yaşayış evləri, milli yeməklər elmi ədəbiyyatda müəyyən qədər araşdırılmışdır. Bunlardan əlavə, Rusiya Xalqları Etnoqrafiya Muzeyində, Gürcüstan Dövlət Muzeyində, Azərbaycan Milli Tarix Muzeyində, Azərbaycan Dövlət İncəsənət Muzeyində, həmçinin, respublikanın digər şəhər və kəndlərində yaradılmış tarix-diyarşünaslıq muzeylərində XIX əsr geyimlərinə aid xeyli faktik material, əhalinin müxtəlif zümrələrinə və etnoqrafik qruplara məxsus milli geyim nümunələri toplanmışdır. Onların bir qismi 1972-ci ildə "Azərbaycan milli geyimləri" adı ilə albom halında nəfis şəkildə nəşr olunmuşdur. Azərbaycanın ayrı-ayrı etnoqrafik bölgələrinə məxsus ənənəvi geyim və bəzək nümunələrinin toplanması işinə XIX-XX əsrin əvvəllərindən başlanmışdır. Tiflis Muzeyinin və Sankt Peterburqdakı Rusiya Xalqları Etnoqrafiya Muzeyinin Qafqaz şöbəsinin əməkdaşları tərəfindən toplanmış geyim kompleksləri sonralar xeyli dərəcədə zənginləşdirilmişdir. Bundan əlavə, həmin muzeylərin geyim və bəzək kolleksiyaları əsasında hazırlanmış rəsm, qrafik, şəkil və cizgi işləri, habelə XIX əsrin sonu və XX

əsrin əvvəllərinə aid fotomateriallar xalq geyimləri və ənənəvi zinət nümunələrini tədqiq etmək üçün mötəbər mənbəyə çevrilmişdir. Bu illüstrasiyalar arasında M.Tilkenin sulu boya ilə işlədiyi kişi və qadın geyim dəstlərinə aid rəsmlər, habelə A.S.Matyaseviç tərəfindən yenə də muzey materialları əsasında natural böyüklükdə çəkilmiş qızıl və gümüş zinət nümunələri diqqəti daha çox cəlb edir. Bunlardan əlavə, XIX əsrdə dərc olunmuş elmi və elmi-publisist məqalələrdə, habelə şəxsi kolleksiyalarda saxlanılan fotoşəkil və təsviri sənət nümunələri XIX-XX əsrlərdə dəbdə olmuş Gəncə milli geyimləri barədə müəyyən təsəvvür yaradır. Bu cəhətdən rus hərbi qulluqçusu P.Zubov, şərqşünaslar N.Dubrovin, İ. Berezin, M. Tkeşelov, İ. Stepanov, P.Yeqorov, İ.Neves və başqalarının əməyi, o cümlədən xüsusilə XIX əsrdə çap edilən "Кавказ" qəzeti, "Кавказский календар"da olan materiallar diqqəti cəlb edir. Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra etnoqrafik bölgələrin maddi mədəniyyətinin, o cümlədən milli geyim və bəzəklərin tədqiqi intensiv şəkil almışdır. Bununla əlaqədar olaraq, etnoqrafik ekspedisiya və elmi səfərlər zamanı əldə olunmuş faktik materiallar əsasında ayrı-ayrı bölgələrin xalq geyimləri araşdırılmağa başlanmışdır. XX əsrin 50-ci illərindən etibarən Azərbaycan etnoqrafiyasında peşəkar elmi tədqiqatçılar nəsli yetişməyə başlamışdır. Azərbaycanın tarixi etnoqrafiyasının müxtəlif sahələri, o cümlədən, maddi mədəniyyət tarixinin ayrı-ayrı məsələlərinə dair ciddi elmi tədqiqat və axtarışlara başlanmışdır. Problemin nəzəri-praktiki bazasının müəyyənləşdirilməsində T.Ə.Bünyadov, Ə.V.Salamzadə, H.A.Quliyev,Q.T.Qaraqaşlı, M.N.Nəsirli, A.N.Mustafayev, R.S.Əfəndiyev, S.S.Dünyamalıyeva, H.A.Həvilov, T.M.Kərimov, F.İ.Vəliyev, Ə.İ.İsayev, D.C.Məmmədov, F.N.Məmmədov və başqalarının maddi mədəniyyətin spesifik sahəsi olan şəhər mədəniyyətinin öyrənilməsi ilə bağlı tədqiqatları əsas götürülmüşdür. XX əsrin 60-cı illərindən başlayaraq xalq geyimləri etnoqrafik bölgələr üzrə o cümlədən Gəncəbasarda müntəzəm olaraq, zəngin etnoqrafik çöl materialları əsasında tədqiq olunmuşdur.

Beləliklə, indiyədək aparılmış araşdırmalar tədqiq etdiyimiz problemin bu və ya digər məsələlərinin həllinə yardımcı olsa da, bu əsərlərdə Gəncədə formalaşan ənənəvi maddi mədəniyyətin öyrənilməsi problemi qarşıya məqsəd kimi qoyulmadığından, bu sahədə xüsusi bir tədqiqata ehtiyac duyulurdu. Dünya xalqlarının tarixən şəhərlərdə formalaşdırdığı ənənəvi maddi mədəniyyət nümunələri etnoqrafik tədqiqata cəlb olunsa da, Azərbaycan etnoqrafiyasında bu məsələyə kompleks yanaşma ilk dəfə olaraq tərəfimizdən cəhd göstərilmişdir.

**Tədqiqatın nəzəri–metodoloji və mənbəşünaslıq bazası.** Tədqiqatda ümummilli lider Heydər Əliyevin Azərbaycan tarixinə aid fikirlərindən geniş istifadə edilmişdir. Dissertasiyada Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının yubiley yığıncağında tarixçilər qarşısında qoyduğu vəzifələrlə əlaqədar nəzəri ümumiləşdirmələrdən faydalanılmışdır. Tədqiqatda təsviri, tarixi–müqayisəli metodlara üstünlük verilmişdir. Dissertasiyanın nəzəri–metodoloji əsasını tarixi tərəqqi prosesində istehsal münasibətlərinin dəyişməsi ilə əlaqədar olaraq xalqın məişət və mədəniyyətində keyfiyyət dəyişikliklərinin formalaşması varislik prinsipinin qorunub saxlanması kimi baxışlar təşkil edir. Tədqiqatın mənbəşünaslıq bazasını müəllifin şəhər mühitindən topladığı çöl – etnoqrafik materialları, informatorlarla söhbət və bu məsələdə meydana çıxan prosesləri elmi baxımdan araşdırmaq kimi səciyyəvi xüsusiyyətlər təşkil edir. Tədqiqatın yazılmasında Gəncə şəhər tarix–diyarşünaslıq muzeyinin materiallarından, XIX – XX əsrlərdən dövrümüzədək nəşr olunan müxtəlif səciyyəli məcmuələrdən, xülasələrdən, dövrü mətbuat nümunələrindən, xarici dildə dərc olunan ədəbiyyatdan, tarixçi və etnoqrafların əsərlərindən istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan etnoqrafiya elmində indiyədək tarixən formalaşan Gəncə şəhər əhalisinin maddi mədəniyyəti, şəhər materialları əsasında, sistemli şəkildə xüsusi tədqiqat predmeti kimi etnoqrafik tədqiqata cəlb olunmamışdır. Dissertasiyanın əsas elmi yeniliklərindən biri Gəncənin maddi mədəniyyət sahələrini hərtərəfli araşdıraraq ümumi səciyyəsini verməklə yanaşı, məhəlli xüsusiyyətləri ümumiləşdirərək bəhs olunan dövrün maddi mədəniyyət kompleksinin formalaşdırılmasıdır. Bu mənada, təqdim olunan tədqiqat əsərində maddi mədəniyyətin ayrı – ayrı sahələrinin bir – biri ilə bağlılığı şəhər mühitinə uyğun olaraq göstərilmişdir. Tədqiq olunan dövrdə Gəncədə ənənəvi maddi mədəniyyətin formalaşmasına və inkişafına təsir edən ictimai, etnomədəni faktorların rolu müəyyənləşdirilmişdir. Maddi mədəniyyətin ayrı – ayrı sahələri ilk dəfə olaraq şəhər materialları əsasında sistemləşdirilərək elmi dövriyyəyə buraxılmışdır. Aydın olmuşdur ki, şəhərin maddi mədəniyyət irsi yerli əhalinin etnomədəni mühitinin daxili dəyərləri hesabına formalaşması ilə bərabər Ümumazərbaycan və Ümumqafqaz maddi mədəniyyətində spesifik mənbə rolunu oynamışdır.

**Tədqiqatın elmi–praktiki əhəmiyyəti.** Dissertasiya işinin materiallarından və əldə olunmuş nəticələrdən çoxçildlik Azərbaycan etnoqrafiyasının, Azərbaycanın maddi mədəniyyət tarixinin və türk

xalqlarının etnoqrafiyasına aid ümumiləşdirici əsərlərin yazılmasında, tarixiliyi ilə seçilən şəhərlərin maddi mədəniyyətinin tədqiqində istifadə oluna bilər. Zərgərlik sənətinin ənənəvi formalarının yaradılmasında, kulinariya mədəniyyətini zənginləşdirən ənənəvi yemək və içkilərin hazırlanmasında, şəhər mədəniyyətinin təbliğində disssertasiyanın xüsusi əhəmiyyəti vardır.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi AMEA–nın Arxeologiya və Etnoqrafiya institutunun "Müasir dövr etnoqrafiya"sı şöbəsində yerinə yetirilmişdir. Mövzunun ayrı–ayrı bölmələri ilə bağlı olaraq beynəlxalq konfranslarda və elmi sessiyalarda məruzələr edilmişdir. Elmi işin bəzi müddəaları müəllif tərəfindən dərc edilərək müxtəlif elmi nəşrlərdə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Tədqiq olunan dissertasiya giriş, dörd fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat, informatorların siyahısından və illüstrativ albomdan ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, öyrənilmə dərəcəsi, elmi yenilik, məqsəd və vəzifələri, elmi-praktiki əhəmiyyəti və aprobasiyası haqqında məlumat verilir.

Dissertasiyanın birinci fəsli **"Şəhərin məskunlaşmasına təsir edən amillər"** adlanmaqla üç bölmədən ibarətdir. Birinci bölmə **"Təbii-coğrafi şərait və təsərrüfat məişəti"** adlanır. Qədim yurdumuzun zəngin və çoxəsrlik tarixə malik şəhərlərindən biri olan qədim Gəncə Kiçik Qafqaz dağlarının şimal – şərq ətəyini geniş Kür – Araz ovalığı ilə birləşdirən, mülayim iqlimi, bol suyu, münbit və bərəkətli torpaqları olan şəhərdir. Şəhər tarixən əlverişli təbii – coğrafi mövqeyə malik olmuşdur. Kiçik Qafqazdan axan Gəncəcaydan suvarmada və məişətdə istifadə olunurdu. Kiçik Qafqazın dağ ətəklərində, o cümlədən Gəncənin iqlimi isti, yarımrütübətli, mülayim – soyuq, yüksək dağlıq zonada isə soyuq rütübətli-dir. Yüksək dağlıq zonada Göy göl istiqamətində alp, subalp dağ – çəmən torpaqları, ondan aşağıda isə dağ – meşə torpaqları yayılmışdır. Tarixci alim M. X. Şərifli görə, IX əsrdən etibarən bir sıra təsərrüfat sahələri, bağ və bostanlar böyük sahələri əhatə etmiş, süni suvarma şəbəkələrinin genişlənməsi pambıq əkininin genişlənməsini şərtlən- dirmişdir. Qədim Gəncədə tapılan XII əsrə qədərki flora qalığının Y.Hummel tərəfindən tədqiqinə görə aşağıdakılar müəyyənləşdirilmişdir; qoz qabığı, gavalı, badam, üzüm, gilas, şaftalı, balqabaq, xiyar, qovun, qarpız və s. Etnoqrafik

müşahidələr zamanı məlum oldu ki, şəhərə yaxın məhəllələrdə bağçılığın inkişafı nəticəsində müxtəlif növ meyvələrin qurudulmasına (xüsisilə meyvəqurudan kürələrdə) xüsusi fikir verilir. Etnoqrafik ədəbiyyatdan məlum olur ki, XVI – XVII əsrlərdə də Gəncə ipək istehsalına görə Yaxın Şərqdə öz üstünlüyünü saxlaya bilmişdi. İpəyin xeyli hissəsi yenə də Asiya və Avropanın bir çox ölkələrinə göndərilirdi. Xarici ölkələrə satışa göndərilən ipəkdən əlavə məhsulun xeyli hissəsi daxildə ipək toxuculuğunu təmin etmək üçün istifadə edilirdi. Ə.K.Qubaydulin yazır ki, orta əsrlər dövründə "Gəncə ipəyi" Gilana göndərilir və buradan Genuya, Venetsiya tacirləri vasitəsilə Avropaya aparılırdı. Məhz bunun nəticəsidir ki, XX əsrin əvvələrinə qədər ipək məmulatı olan kəlağayı istehsalı Azərbaycanın iki əsas mərkəzində Gəncədə və Basqalda cəmləşmişdi. Hələ 1793 – cü ildə S.D.Burnaşevin yazdığına görə İrana və Hindistana gedən əsas ticarət yolu Gəncədən keçirdi.

Fəslin ikinci bölümü **"Şəhərin qısa tarixi ocerki"** adlanmaqla qədim və orta əsrlərdə Şərqin böyük iqtisadi, mədəniyyət mərkəzlərindən olmuş Gəncə şəhərinin tarixinin kompleks şəkildə tədqiqinə həsr edilmişdir. Bir mənalı şəkildə qeyd etmək olar ki, Azərbaycan şəhərlərinin yaşı onların haqqında olan yazılı mənbələrdəki məlumatlardan daha qədimdir. 2003-2013-cü illərdə Gəncə arxeoloji ekspedisiyasının apardığı qazıntılar nəticəsində neolit dövrünə aid balta və isgənənin, Gillikdağ emalatxanasından və düşərgəsindən dəvəgözü və çaxmaqdaşı alətlərinin əldə edilməsi bu ərazidə yaşamış insanların e.ə.VII-VI minilliklərə aid neolit mədəniyyətinin yaradıcılarından olduğu, Təndirlidəki tapıntıların varlığı isə bu həyat tərzinin e.ə. V minillikdə eneolit dövründə də davam etdiyi sübut edilmişdir. Məhz e.ə. IV – III minilllikdə Gəncə eneolit mədəniyyəti əsasında yaranmış ilk tunc dövrü mədəniyyəti Kür-Araz mədəniyyətinin əsas mərkəzlərindən biri olub. Hal-hazırda da Gəncə və onun ətrafında bu dövrə aid minlərlə kurqan tipli qəbir abidələrinin, yaşayış məskənlərinin mövcudluğu, burada şəhər mədəniyyətinin olmasını göstərir. XIV əsr müəllifi H.Qəzvini Gəncənin hicri tarixi ilə 39-cu ildə (miladi 659-660), V.V.Bartold hicri tarixi üzrə 239-cu ildə (miladi 853-854), İ.M.Cəfərzadə isə IX əsrdən əvvəl meydana gəlməsini bildirmişlər. B.Bezmenovun fikrincə şəhər Makedoniyalı İsgəndər tərəfindən salınmışdır. Y.A.Qaqemeyster şəhərin Bərdə və Beyləqandan da qədimliyini, İ.Şopen isə Bərdədən yaxın məsafədə Gəncənin inkişaf etdiyini söyləmişlər. Demək olar ki, vaxtilə şəhərin tarixi ilə məşğul olan müəlliflərdən heç biri onun əmələ gəlməsinin dürüst tarixini göstərə bilməmişdir. Əhəmiyyətli ticarət şəhəri olan Gəncə yalnız 944–cü ildə

Bərdə şəhərinin ruslar təfəfindən darmadağın edilməsi ilə əlaqədar olaraq Bərdə öz əhəmiyyətini itirdikdən sonra məşhur olmuşdur. Bəzi məlumatlar şəhərin konkret tarixini 844-cü il olduğunu göstərir. Gəncənin nə zaman meydana gəldiyi haqqında fikir yürütmək üçün bir cəhət də hicri 94–cü ildə (712/713) Gəncədə kəsilmiş dirhəmdir. Brokhauz – Yefronun "Ensiklopedik lüğətin"də VII yüzülliyin əvvələrində Gəncənin farslar, ərəblər və xəzərlər arasında hərbi əməliyyatların mərkəzinə düşməsi qeyd olunur. Müxtəlif tarixi zamanlarda şəhərin adı dəyişilmələrə məruz qalaraq 1606–cı ildə Abbasabad, 1804–cü ildə Yelizavetpol, 1935–ci ildə Kirovabad adlandırılıb. 1989–cu ilin dekabrın 30–da yenidən Gəncə adı şəhərin özünə qaytarıldı. Bu gün Azərbaycan öz müstəqilliyini davamlı olaraq inkişaf etdirir. Ulu öndər Heydər Əliyevin dediyi kimi: "Azərbaycanın müstəqilliyi daimi dönməz və əbədi olacaqdır". Bu baxımdan Gəncə adı da əbədiyyət salnaməsində daimi yaşayacaqdır.

Fəslin üçüncü bölümü **"Şəhər həyatında ictimai-iqtisadi amillər"** adlanır. Burada represiv və deportiv tədbirlərin həyata keçirilməsinə baxmayaraq, şəhər əhalisinin əsas etnik tərkibi azərbaycanlılardan ibarət olmuşdur. Rusiyanın işğalından və Rusiya–İran müharibələrinin başa çatmasından sonra digər şəhərlər kimi, Gəncənin də əhalisi ildən-ilə artmağa başladı. Buna səbəb təbii artım, müharibələr nəticəsində şəhər əhalisinin bir hissəsinin geri qayıtması, çarizmin müstəmləkə siyasətinə uyğun olaraq ermənilərin, rusların, almanların köçürülməsi kimi hadisələrin baş verməsi idi. XIX yüzilliyin ikinci yarısından etibarən Gəncə şəhər əhalisinin milli - sosial tərkibi də rəngarəng idi. Əhalinin etnik tərkibi çox kəskin dəyişikliyə məruz qalmışdı. Belə ki, yerli əhali -azərbaycanlılarla yanaşı buraya köçürülmüş ermənilər, ruslar, yəhudulər, ləzgilər, almanlar da Gəncə və ətraf ərazilərdə məskunlaşmışdılar. Müharibədən sonrakı iki il ərzində İrandan və Osmanlı imperiyasından köçürülmüş 120 min nəfərdən çox erməniyə İrəvan və Yelizavetpol (Gəncə) bölgələrində azərbaycanlı bəylərə məxsus torpaqların bir hissəsi və 200 min desyatindən çox xəzinə torpağı ayrılmışdır. Yelizavetpol əyalətinin dağlıq və dağətəyi hissəsində, eləcə də Göyçə mahalında gəlmə ermənilər məskunlaşmışdılar. Rus tədqiqatçısı N.Şavrov 1911-ci ildə yazırdı ki, hazırda Cənubi Qafqazda yaşayan1milyon 300 min nəfər erməninin 1milyondan çoxu bizim tərəfimizdən bu ərazilərə köçürülmüşdür. Ruslar Gəncənin tarixi ərazilərində daha çox erməni ailələrini məskunlaşdırdılar. Nəticədə əhalisi ermənilərdən ibarət olan Çaykənd, Azad, Ərqaç, Ablah, Zurnabad, Manaşit kəndləri yarandı. Bunun üçün onlara 200 min desyatin dövlət torpağı, yəni əvvəllər yerli əhalinin əlindən alınmış torpaq və azərbaycanlılardan dövlət tərəfin-

dən 2 milyon manatlıq satın alınmış torpaq verilmişdir. Hal – hazırda azərbaycanlıların çoxluq təşkil etdiyi şəhər mühitində yüksək texnoloji inkişafın sosial–iqtisadi nəticələrini müşahidə etmək mümkündür. İqtisadi göstəricilərin yüksələn xətt üzrə inkişafına təkan verən əsas amillərdən biri kimi, təsərrüfat həyatının və təbii sərvətlərin zənginliyini göstərmək olar.

Dissertasiyanın ikinci fəsli **"Xalq yaşayış evləri"** adlanır və fəslin birinci bölümündə **"Evlərin tipoloji xüsusiyyətləri"**ndən bəhs edilir. Şəhər mədəniyyətinin formalaşmasına təsir edən amillərdən biri də xalq yaşayış evlərinin ənənəvi tikilməsi qaydasıdır. Şəhər yaşayış məskənləri e.ə. III minillikdə meydana gəlmiş, orta əsrlərdə böyük təkamül və inkişaf yolu keçmiş və XIX-XX əsrin əvvəllərində də Şərq şəhərlərinə məxsus memarlıq-planlaşdırma quruluşunu qoruyub saxlamışdır. Şəhərin XVIII – XIX əsrlərə aid olan yaşayış binaları tipoloji cəhətdən otaqları bir (şəhər ətrafında) və bəzən ikicərgəli (mərkəzdə) yerləşmiş evlərdən ibarətdir. Şəhər funksional planlaşdırmaya görə "ərk" (İç qala, Narın qala), "şəhristan" (əsilzadələrin yaşadığı hissə) və "rabat" (sənətkarlıq və ticarət hissəsi) adlı üç bölmədən ibarət olmuşdur. "Rabat" topoqrafik quruluş baxımından "ərk"in ətrafında yerləşərək, şəhərin bütün tikililəri daxil olmaqla bir və bir neçə sırada konsentrik istehkam divarları ilə əhatə olunurdu. Rabatın məhəllələrə bölünməsi şəhərsalma mülahizələrindən başqa, sosial və ictimai-istehsalat münasibətləri əsasında əmələ gəlirdi. Bu baxımdan şəhərdə Ozanlar, Bağbanlar, Zərrabi, Toyuqçular, Şərbaflar, Dabbağlar və s. adlı məhəllələrin olması məlumdur. Həyətsiz, kərpic evlər şəhərin mərkəzi məhəllələrində geniş yayılmışdır. Daimi yaşayış evləri plan quruluşuna, yerləşmə vəziyyətinə və hündürlük səciyyəsinə görə yeraltı (kühül, qazma, gəmrə, çaydaşılı, hörgülü və s.) və yerüstü (zirzəmili, kürsülü, dəkkəlüstü, mərtəbəli və s.) olmaqla müxtəlif tipoloji növləri formalaşmışdır. Şəhərdə əhalinin sosial-iqtisadi və mədəni-texniki səviyyəsinin müxtəlifliyi üzündən ənənəvi ev tiplərinin xeyli qismi XIX - XX əsrədək gəlib çatmışdır. Hələ XIX əsrin əvvəllərində 1737 belə ənənəvi tikilmiş evlər mövcud idi. Onlardan 213 – ü Qalada, 792- si "Dik küçə"də, 732- si şəhərin Bağbanlar hissəsində yerləşirdi. Məhsuldar qüvvələrin sonrakı inkişafı nəticəsində inşaat texnikasının təkmilləşməsi sayəsində yerüstü evlərin müxtəlif tipləri: daşquralı, tatı, çaydaşından olan səkili (kürsülü), qoclu, dirəkbarı, kərtmə, şirvani, salyani, bacalı, dublalı, günbəzli ev və inşaat texnikasının sonrakı təkamülü nəticəsində hörgülü evlərin zirzəmili, kürsülü, yerüstü, dəkkəlüstü, təkotaqlı, dəhlizli, eyvanlı, bir və ikimərtəbəli, küləfirəngili, qoşa eyvanlı, varlı evlərindən olan ağ otaq, imarət, tənəbi ev, malikanə və s. olmaqla, çoxsaylı tipoloji növləri

yaranmışdır. Günbəzli evlərin inşa tarixi XVII – XVIII əsrlərə aid edilir. Plan konfiqurasiyası baxımından günbəzli evlər iki cürdür. Birinci qrupa ellipisvari qübbə ilə örtülən düzbucaqlı planlı, ikinci qrupa isə çatma – şişbucaq qübbə ilə örtülən kvadrat planlı tikililər daxildir. Bəzən yaşayış evləri təsərrüfat tikililəri ilə vahid inşaat kompleksi təşkil edirdi. Xalq yaşayış evləri, habelə dam örtüyünün formasına (yastı, balıqbeli, günbəzli, damdabaca, çatma damlı), örtük materialına (torpaq, qamış, lığpuş, taxtapuş, sufal - kirəmit, tənəkə), memarlıq ünsürlərinə (bünövrə, divar, döşəmə, dam, eyvan, başmaqçıxan, pilləkən və s.), otaqların düzülüş qaydasına (ikibaşlı, dəhlizli, alt-üst, balaxanılı, ləməli və s.), inşaat texnikası, işıqlandırma və qızdırılma sistemlərinə görə bir-birindən fərqlənirdi. Gəncəçayın aşağı axarında tikilən evlər kürsülü, yarızirzəmili olmuş, XIX əsrin sonlarından isə əsasən iki mərtəbəli evlər tikilmişdir. XIX-XX əsrin əvvəllərində orta tavanlı əhali ev tikintisi zamanı bişmiş kərpiclə çiy kərpicdən yanaşı istifadə edərək işlətməyə üstünlük vermişdir. Çaydaşıların və ya kötür daşların qırmızı kərpiclə birgə tətbiq olunduğu divarlarda qırmızı kərpicdən əsas material kimi istifadə olunurdu.

Fəslin ikinci bölümü **"Evlərin formaları"**na həsr edilib. Səriştəli sənətkarlar tərəfindən inşa olunan yaşayış evlərinin planlaşdırma üsullarının və memarlıq kompozisiyalarının formlaşmasında əsas xüsusiyyət kimi yerli iqlim və sosial-iqtisadi şəraitin təsiri vacibdir. Aparılan etnoqrafik müşahidələr, yaxud memarlıq tədqiqatları Gəncə xalq yaşayış evlərinin kəllayı (kəlləzal), qoşa kəllayı, cərgəvi (düzdəmə) plan quruluşuna malik olduğunu və belə planlı evlərə, bir qayda olaraq, "Q", "P" şəkilli evlər deyirlər.

Fəslin üçüncü bölümü **"Yaşayış evlərinin daxili sahmanı"** adlanır. Burada yaşayış evlərinin forma, plan quruluşu və tiplərindən fərqli olaraq, interyerdə də müvafiq dəyişikliklər baş vermişdi. Müxtəlif məqsədlər üçün düzəldilmiş divar açırımları, gəncəlilər buna "zeh" deyir, yaxud taxça və ya rəf (ləmə), divar şkafı, yük yeri, dolab, buxarı və s. mühüm əlamət idi. XX əsrin əvvəllərindən etibarən sənayenin, ticarətin və sənətkarlığın yüksəlişi Gəncədə, şəhər və yarımşəhər tipli evlərin meydana çıxmasına səbəb olmuşdur. Şəhərdə ilk dəfə olaraq, daxili interyeri ilə seçilən, baş fasadı küçəyə yönəldilmiş və otaqları iki cərgədə planlaşdırılmış binalar meydana çıxmağa başlayır. Şəhər yaşayış evlərinin daxili sahmanında mühüm məişət elementlərindən biri yük yerinin (camaxatanın) olması idi. Şəhər evlərinin interyerlərinin bədii tərtibatında tətbiq olunan bədii vasitələr, məişət memarlığı elementləri xalqın çox əsrlik həyati və inşaat təcrübəsinin nəticəsi olaraq, yüzilliklər boyu nəsildən-nəslə keçərək

təkmilləşmiş, müasir işıqlı evlərin bədii tərtibatına kimi çox böyük inkişaf yolu qət etmişdir.

Fəslin **"Təsərrüfat tikililəri, ictimai binalar"** adlanan dördüncü bölümündə göstərilir ki, Gəncədə təbii-coğrafi şərait, sosial-iqtisadi amillər əhalinin məişət tərzi və təsərrüfat məşğuliyyyətindən asılı olaraq tarixən bir çox təsərrüfat tikililərini formalaşdırmışdır. Təsərrüfat tikililərinin formalaşmasında XIX-XX əsrlərdə bölgə üçün xarakterik olan əkinçilik, maldarlıq qismən də ev peşəsi və sənətkarlıq kimi təsərrüfat - mədəni tiplərin müstəsna rolu olmuşdur. Gəncəlilər evin damından ərzaq saxlamaq və ya orada barama becərmək məqsədi ilə istifadə etmək üçün ikisinəli, yəni şilvərli çardaqları daha sərfəli sayılırdılar. Şilvərli çardağın kəllələri çox vaxt "şeşxana" adlanan daş və ya kərpic hörgülü divar, yaxud çubuqdan hörülmə çəpər ilə tutulub tutumlu hala salınırdı. Gəncədə burjuaziya formalaşdıqca, onun şəhər iqtisadiyyatı üzərində təsir gücünün artması müxtəlif sahələrdə üzümçülük, şərab, tütün, konyak, spirt istehsalı sənaye xarakteri daşıdığı və şəhərdə yeyinti sənayesində mühüm rol oynadığı üçün, şəhər iqtisadiyyatının bu sahələrdəki inkişafı yeni ticarət evlərinin, şirkət binalarının və sənaye müəssisələri üçün ənənəvi memarlıq üslubunda binaların inşa edilməsinə təsir edirdi.

Dissertasiyanın üçüncü fəsli **"Ənənəvi yemək və içkilərin qidalanma sistemində yeri"** adlanır. Bu fəslin birinci bölümü **"Bitki mənşəli yeməklər"ə** həsr edilib. Tarixən şəhər əhalisinin qida ehtiyatının əsasını yeməli yabanı, mədəni bitkilər təşkil etmiş və ənənəvi bitki mənşəli qida məhsulları arasında dənli bitkilər, xüsusilə taxıl məhsullarından hazırlanan xörək və çörəklər başlıca yer tutmuşdur. Arxeolji materiallara əsaslanıb müəyyən etmək olar ki, Eneolit dövründə bölgədə artıq çörək bişirmə ənənəsi mövcud olmuşdur. Çörəkçiliyin Gəncədə qədim tarixə malik sənətlərdən biri olmasını Çörəkçilər məhəlləsi də sübut edir. Ehtimal edirlər ki, Nizami Gəncəvi çörəkçilər nəslindəndir. Çörəkbişirmə vasitəsinin növünə görə, çörəklərin fərqli tipoloji növləri: yuxa (fətir, nazik), lavaş, qalın, dasdana, xamralı, yanlama, bozlamac, səngah, xərək, çöçə və s. yaranmışdır. Şəhərin bəzi məhəllələrində quyruqdan cızdaqlı çörək və düyü unundan çörək əvəzi "nodə" də bişirilərdi. Undan fəsəli, qatlama, balliyə, zilviyyə, təndir paxlavası, nazik, riştə paxlavası və bu kimi qənnadı məmulatlar hazırlayırlar. Gəncə noğulunun bişirilməsinin səciyyəvi xüsusiyyətlərindən biri də onun tərkibinə badamın qatılmasıdır. Bitki mənşəli yeməklər arasında xəngəl, xəşil, quymaq, umac, əriştəli aş, sülhüllü və s. kimi xəmir xörəkləri və düyüdən hazırlanan xörəklər (plov, şilə, firni, yalançı dolma və s.) mühüm yer tutmuşdur. Süfrədə paxlalı bitkilərdən

(şeşəmodu, hədik, şorba və s.) və tərəvəzlərdən (kükü, göy qutabı (kətə), səbzi qovurna və s.) xörəklərin tərkibində istifadə olunmuşdur. Tərkibi göyərti ilə zəngin olan yemək növlərindən biri də Gəncə dovğasıdır. Dovğanın adına XII əsr müəllifi Əbu Bəkr Gəncəvinin "Munisnamə" əsərində "duğba" formasına rast gəlinir. Etnoqrafik baxımdan mühüm məna kəsb edən vacib bir cəhət də bundan ibarətdir ki, ədvalı xörəklər daha çox şəhər mədəniyyəti ilə, xüsusilə də onun elitar qisminin mətbəxi ilə üzvi surətdə bağlı olmuşdur.

Fəslin ikinci bölümü **"Heyvan mənşəli yeməklər"** adlanır. Bölgənin zəngin faunası əhalinin yemək rasionunda ət və süd məhsullarına üstünlük verilməsini şərtləndirmişdir. Ov heyvanları, ov quşları, dəniz, çay və göllərin tükənməz balıq sərvətləri qədim zamanlardan əhalinin ətli yeməklərə olan tələbatını ödəmək üçün bol qida ehtiyatı yaratmışdır. Şəhər əhalisinin gündəlik yemək süfrəsində ətli yeməklər çox işlənməsinin əsas səbəblərindən biri şəhərlərdə sallaqxana və qəssabxanaların mövcud olması ilə bağlı idi. Burada ət xörəklərinin çoxlu məhəlli-lokal variantları da mövcud olmuşdur. Gəncəlilərin bağırbeyni, ət şamısı, qorabasdırması, doldurması, xəngəli, pitisi, kələpırı, küftə-bozbaşı, şah küftəsi, bozartması, düşbərəsi, kababları və s. adla söylənir, qonaq qarşısına çıxarılan lətafətli xörəklər kimi səciyyələnirdi. Ənənəvi yeməklərin qida tərkibinin müxtəlif olması, yüksək kaloriliyə, yerli, özünəməxsus dadına görə seçilir. Yüksək qida mədəniyyətinə xas olan zəngin çeşidli, ləziz yeməklər əhalinin elitar zumrələrinin süfrəsinə məxsus olmaqla yanaşı, mərasimlərdə də geniş istifadə olunur. Məhz bu baxımdan fəslin üçüncü bölümü "**Mövsümi, mərasim və bayram yeməkləri"**nə həsr edilib. Burada göstərilən bayram və mərasim yeməklərinin geniş çeşidi, hazırlanma qaydaları, təyinatı, bu sahədə qazanılmış böyük əməli vərdişlər gəncəlilərin qida mədəniyyətinin zənginliyindən xəbər verir. Orucluq günlərində iftar süfrəsinə firni, bal, yağ, quymaq, tərək, toyuq şorbası, südlü sıyıq, xüşkbar çərəzi qoyulurdu, yüksək kalorili yeməklərdən pəhriz saxlanılırdı. Obaşdanlıq isə bir qayda olaraq, süd-ağartı məhsulları, bal, yumurta, çay, meyvəcatla təhciz olunurdu. Qurban bayramının yemək süfrəsi başlıca olaraq ətli xörəklərdən təşkil olunurdu. Milli (mövsümi) bayramlardan olan Xıdır Nəbinin özünəməxsus yemək süfrəsində xəşil, qovud, səməni halvası, şirin çörəklər və s. üstün yer tuturdu. Novruz bayramının yeməkləri əriştə aşı, qovud, quzu qatlaması, səbzi plov və müxtəlif yağlı çörəklərdən (əyirdək, qozlu dürmə, zireyin, ballıbadı, bayram çoçəsi, kosa külçəsi, bahar dürməsi və s.) ibarət olurdu. Qonaqlıq süfrələri adətən, çay dəstgahı ilə sona çatır. Çayı bəzən bal, bəkməz (doşab), meyvə qurusu, çayotu, sarı-çıçək, mixək,

kəkotu, itburnu və s. ilə içirlər. Qızılgülün ləçəklərindən mürəbbə, gülab və gülqənd hazırlamaq Gəncə əhalisi arasında geniş yayılmışdı. Eyni zamanda, nanə, nar, zəfəran, sumaq, zirə və limondan hazırlanan şərbətlər Gəncə süfrəsinin əvəzsiz nemətləridir.

Fəslin dördüncü yarımfəsli isə "**Qidalanma sistemində şəhər yeməklərinin spesifik xüsusiyyətlərində gedən transformasiyalar"** adlanır. Şəhər əhalisinin qidalanma sistemi spesifik baxımından sosial mənsubiyyətdən, təsərrüfat məşğuliyyətinin istiqamətindən, mövsümdən və b. mədəni - iqtisadi amillərin fəal təsirindən asılı olaraq zaman-zaman formalaşmışdır. Qəbul olunmuş ümumi qaydaya görə, yemək gündə üç dəfə: səhər yeməyi, nahar, şam yeməyi yeyilsə də mövsüm dəyişmələri, iqlim, təsərrüfat məşğuliyyəti, xüsusuilə də bəzi dini bayramların keçirilməsi yemək öynələrində dəyişikliklərə səbəb olur. Gəncə mətbəxi bütövlükdə azərbaycanlıların ötən tarixi keçmişi ərzində onun qida mədəniyyəti sahəsindəki əməli səyləri nəticəsində yaranıb təkmilləşmişdir. Bu mədəni sərvət özünəməxsus xüsusiyyətlərə malik olub, əsasən, yerli ənənələr zəminində inkişaf etmişdir. Digər tərəfdən, Gəncəbasar əhalisinin tarix boyu qonşu Qafqaz və Şərq xalqları ilə sıx mədəni əlaqə və qarşılıqlı təmas şəraitində yaşaması faktı da onun ənənəvi qida mədəniyyətinə az təsir göstərməmişdir.

Dissertasiyanın dördüncü fəsli **"Geyimlər və bəzəklər"** adlanır. Fəslin birinci yarımbaşlığı **"Geyimlərin materialı, biçimi və onların müxtəlif amillərlə bağlılığı"** na həsr edilib. Gəncəlilərin ümummilli geyim dəstlərinin təşəkkül tapmasında, Azərbaycanın tarixi-etnoqrafik bölgələrinin hər biri yaxından iştirak etmiş, bu mədəni sərvətin yaranmasına öz əməli töhfəsini vermişdir. XIX – XX əsrlərin geyim dəsti biçim üsuluna və tikiş texnikasına görə özündən əvvəlki tarixi dövrlərdə təşəkkül tapmış geyim tiplərinin davamı olsa da, yeni dövrün tələblərinə uyğun olaraq bəzi dəyişikliyə uğramışdır. Bu istiqamət daha çox şəhərlərdə kübar geyim, yaxud peşə geyim dəstlərində özünü göstərirdi. Gəncədə kapitalist istehsal sahələrinin yaranması, əmək bölgüsünün artması, peşə, zümrə fərqlərinin dərinləşməsi müxtəlif növ məqsədyönlü peşə geyimlərinin formalaşmasını zəruri etmişdir. XIX - XX əsrin əvvəllərində geyimlərdə baş verən mühüm dəyişikliklərdən biri də ənənəvi hərbi geyim ünsürlərinin, o cümlədən dəbilqə, qolçaq və onunla bağlı olan yaraq növlərinin qılınc, qalxan, nizə, mizraq, əmud, şeşpər, ox, kaman tədricən gərəksizləşməsi və aradan çıxması olmuşdur. Təkcə kəmərdən asılan xəncər və çuxanın yaxasına düzülmüş patrondaşı əvəz edən "vəznə" hələ də kişi libasının tamamlayıcı bəzək elementi kimi mövcud idi. Odlu silahların yayılması nəticəsində dəb

düşmüş vəznə tədricən özünün əməli əhəmiyyətini itirərək, daha çox dekorativ bəzək elementinə çevrilmişdir. Çar dönəmində gəncəlilər öz övladlarına çuxa (suknı, arxalıq, bürməti) geyindirib, Bakıya, Tiflisə və s. şəhərlərə oxumağa göndərərdilər.

Fəslin ikinci yarımbölümü **"Kişi geyimləri"** adlanır. Gəncəlilərin kişi libasına daxil olan geyim növlərinin əksəriyyəti əvvəlki dövrlərin ənənəvi geyim tiplərinin davamı olub biçim üsulu, tikiş texnikasına görə Ümumazərbaycan, Ümumşərq səciyyəsi daşımasına baxmayaraq, spesifik xüsusiyyət baxımından da fərqlənirdi. Kişi əyin geyimlərindən olan alt paltarı müxtəlif adlarda iki ayaq, alt köynəyi, ağ köynək, can köynəyi, ət köynəyi, şalvaraltı, kişi tumanı, dizlik, ağ tuman, alt tuman və s. bölgə üçün xarakterik səciyyə daşımışdır. Tədqiq edilən dövrdə kişi geyimlərinin əsas elementlərinə, köynək–qaftan, şalvar, arxalıq, çuxa, əba, qəba, cübbə, börk, külah–papaq, çarıq" və s. rast gəlmək mümkündür. Çuxanın növünə, tikildiyi parçanın dəyərinə görə şəxsin sosial mənsubiyyətini və iqtidarını müəyyən etmək mümkün idi. Gəncədə sifarişlə tikilən və mövsümi səciyyəli geyim tipi olan "xəz-əzəmi" adlanan kürk növü də bəhs olunan dövrdə varlıların geyim dəstində olmuşdur. Eyni zamanda gündəlik kişi geyim dəstlərindən başqa, "aşıq libası", "kamandarlıq libası", "davalibası", "faxır libas", "bəylik paltarı" və s. kimi dəstlər də mövcud olmuşdur. Kişi ayaq geyimləri əvvəlki dövrlərdəki kimi, yenə də yun corab, badış, dolaq, patava, onun üstündən geyinilən çarıq, başmaq, nəleyin, uzunboğaz çəkmə, çust, məst və s.-dən ibarət idi. XIX-XX əsrin əvvəllərində kişi baş geyimləri içərisində aşılı qoyun dərisindən tikilmiş papaq xüsusi yer tuturdu. İmkanlı kişilər, əsasən, "qaragül" dərisindən "sür" papaq tikdirərdilər. Keçmişdə qaragül dərisini kənardan, ən çox Orta Asiya, Krım və İrandan gətirirdilər. Buna görə də ona "Buxara", yaxud "Şirazi" papaq da deyilirdi. Qəbələ üslubunda tikilən "Gəncə papağı" 4-5 hissədən biçilib tikilirdi. Onu əl tikməsi ilə tərs üzünə tikir, astar çəkdikdən sonra avand üzünə çevrirdilər. Çox vaxt papağın saçaqlarını xüsusi üsulla eşib qıvrımlayırdılar.

Fəslin **"Qadın geyimləri"** adlanan üçüncü bölümündə göstərilir ki, Gəncə qadınlarının geyim dəsti tipoloji cəhətdən Ümumazərbaycan səciyyəsi daşısa da, bir çox baxımdan məhəlli xüsusiyyətləri ilə seçilib fərqlənirdi. Bu cəhət özünü ən çox üst geyimlərində və bəzəklərdə büruzə verirdi. Tədqiq edilən dövrdə qadın geyimlərinin əsas elementlərinə, köynək, tuman, zıvını, arxalıq, lavada, kürdü çərkəzi və s.rast gəlmək mümkündür. Qollarının formasına görə Gəncə arxalıqları "nilufər qollu" (yelpazəli) olurdu. Kübar ailələrdə arxalıq adətən məxmər, darayı, qanovuz

və s. ipək parçalardan, kasıb ailələrdə isə sətin və ləstikdən tikilirdi. Gəncəlilərin ənənəvi geyimlərindən hesab edilən “çaxçur” adətən şəhər əhalisinin, xüsusilə də kübar ailələrin geyimi kimi istifadə olunurdu. Elmi ədəbiyyata “əyin libası” adı ilə daxil olan alt və üst paltarı öz növbəsində çiyindən və beldən geyilmə olmaqla iki qismə bölünürdü. Çiyindən geyinilən libas növləri bəzi bölgələrdə “çiyindirikli”, bel geyimləri isə “kəmərbəstə” adı ilə təqdim olunurdu. XIX-XX əsrlərdə Gəncə qadınlarının ənənəvi ayaq geyimləri corab, badış, çarmıq, şətəl, çust, nəleyin, məst, lapçın (nafçıl), dabanlı uzunboğaz və yarımboğaz çəkmə, quşkeçən, kəlik və s.-dən ibarət olmuşdur. Gəncə qadınlarına məxsus çəkmələr məxmərdən tikilməklə, üstü təkəlduz, güləbətin  tikmə və s. ilə bəzədilmişdir. Qadın baş geyimləri qoyma və örtmə olmaqla iki qrupa bölünürdü. Birinci qrup baş geyimlərinə təsək-çəpçik (saya, inci, qaysava), düyməçə, çutqu, araqçın, dingə; ikinci qrup baş geyimlərinə isə çalma, kəlağayı (saçaqlı, Şamaxı, Gəncə, Bağdatı və s.), örpək (sərəndaz, paxlava, baftalı, gülvəngi, və s.), baş şalı (şəddə, güllü, yayıcı və s.) və ləçək (qaşbənd, çikilə, xınabənd və s.) eləcə də niqab, rübənd, tül, çadra çarşab (yapıncı çarşab, məfrəş və s.) aid idi.

Fəslin dördüncü yarımbölümü **“Bəzəklər”** adlanır. Etnoqrafik materialların təhlili göstərir ki, şəhər əhalisinin geyim mədəniyyətində bəzək əşyaları, xüsusilə qadın zinətləri mühüm yer tuturdu. Tarixən kustar sənətkarlığın inkişafı ilə əlaqədar olaraq, ənənəvi bəzəklər içərisində zərgərlik məmulatları  əhəmiyyətli mahiyyət kəsb etmişdir. XIX yüzilliyin 50-ci illərində Gəncədə 24 zərgər, XIX-XX yüzilliyin hüdudlarında isə 33 zinət ustası fəaliyyət göstərmişdir. Gəncə ustalarının zəmanəmizə qədər gəlib çatmış əl işləri onların zərgərlik sənətinin bütün üsullarından döymə, basma, xatəmkarlıq, qarasavad, şəbəkə, minasazlıq və s.  məharətlə istifadə etdiyini göstərir. Dahi mütəfəkkir Nizami Gəncəvinin “Xəmsə” sində rast gəldiyimiz üzəri sikkələr və gövhərlərlə bəzədilmiş qızıl kəmər, qaşlı və ya qaşsız, tacidar möhürü rolunu oynayan üzüklər “tuği”, “gərdənbənd”, “xalxal”, “zərli həmayıl”, zənəbrinə boyunbağı, “tac”, saça taxılan ağa möhrələr, sırğalar, eləcə də libasa vurulan bəxyələr Gəncə qadınının milli libaslarının bəzək ornamentlərinin zənginliyini göstərir. Bəhs edilən dövrdə qadın zinət-bəzək əşyaları istifadə qaydasına və gəzdirmə tərzinə görə baş ( bunlar tac, dingə, qəfəsə, cıqqa, araşqın, gəlintac və s.), qulaq ( altun küpə, yarpağı, lolu, kufə, buta, satıl, şarlı, cəvahiri, piyalə formasında olmuşdur), boyun- sinə (boğazaltı, yaxagülü, məcdiyyə, heykəl, mərcanə, silsilə, çəçik, sərmə, arpa boyunbağı və s.), bel, qol, barmaq, o cümlədən “halqa-xətəm”,

“əyrəmçə, “sünbül”, “paxlava qaşlı” və s. bəzəkləri olmaqla müxtəlif qruplara ayrılırdı.

Beləliklə, Gəncə şəhərinin ənənəvi maddi mədəniyyətinin tarixi – etnoqrafik baxımından araşdırarkən bir sıra mühüm **nəticələr** əldə edilir ki, onlar da aşağıdakılardan ibarətdir;

Birincisi, tədqiqatda göstərilən problemlər milli-maddi dünyamızla yanaşı, gəncəlilərin təsərrüfat məişətinin, sənətkarlığının əsrlər boyu inkişafını və təkamülünü görməyi əsaslandırır.

İkincisi, tədqiqatın elmi nəticələri tarixi və sosial-iqtisadi təbəddülatlar, siyasi, iqtisadi, hərbi, dini və s. proseslər fonunda sıradan çıxmış qeyri-maddi irsi reallaşdırmağa, bununla da müasir dövrün bəzi etnoqrafik dəyərlərin izahını verməyə şərait yaradır.

Üçüncüsü, yerli əhalinin maddi mədəniyyəti ilə bağlı məsələlərin hər biri konkret tarixi dövrün etnoqrafik əksi olmaqla yanaşı, gəncəlilərin təsərrüfat həyatı, mənəvi mədəniyyəti, həyat tərzi, ailə məişəti haqqında müasir dövrümüz üçün mühüm məlumatları özündə göstərməklə, müasir etnoqrafik tədqiqatların aparılması baxımından ətraflı material verir.

Nəhayət, dördüncüsü, gənc nəslin dünya görüşünün formalaşmasında, vətənpərvərlik ruhunda tərbiyə olunmasında, onlarda Vətənə məhəbbət hisslərinin aşılanmasında, milli-mənəvi dəyərlərimizə hörmət hissinin tərbiyə olunması işində də hər bir tarixi şəhərlərin, o cümlədən Gəncə şəhərinin də əhəmiyyətli rolu vardır.

**Dissertasiyanın əsas məzmunu və elmi müddəaları müəllifin aşağıdakı məqalə və tezislərində əksini tapmışdır:**

1. Gəncə İlham Əliyevə məhəbbətin mərkəz şəhəridir // GDU, Elmi xəbərlər. Gəncə: 2011, № 2, s.102-104
2. Gəncə şəhər əhalisinin etnik tərkibi (XIX-XX yüzilliklər) // GDU, Elmi xəbərlər. Gəncə: 2012, № 1, s.90-95
3. XIX-XX yüzilliklərdə Gəncə şəhərinin təsərrüfat tikililəri. İctimai binalar // Tarix və onun problemləri. Bakı: 2012, № 3, s.321-328.
4. Gəncə şəhərinin formalaşması tarixindən // Azərbaycan arxeologiyası. Bakı: 2012, Cild 15, say 2, s.91-98
5. Gəncə şəhərinin yaranmasında təsərrüfat məişətinin roluna dair // Gənc alimlərin əsərləri. Bakı: 2014, № 10, s.255-262
6. Gəncədə çörəkbişirmə adətlərinə dair // AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu. Azərbaycanda 2014-cü ildə aparılmış arxeoloji və etnoqrafik

tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiyanın materialları. Bakı: 24 aprel 2015-ci il, s.171-173

7. XIX XX əsrlərdə Gəncə şəhərinin maddi-mədəniyyət nümunələrinə dair // Qafqaz tarixinin aktual məsələləri. Beynəlxalq elmi konfransın materialları, I hissə, GDU, Gəncə: 15-16 oktyabr, 2015. s. 258-261

8. Heydər Əliyev və Gəncə // "Azərbaycan tarixinin Heydər Əliyev epoxası" mövzusunda III Beynəlxalq elmi-praktik konfransın materialları. Azərbaycan Universiteti, Bakı: 2015, s. 183-186

9. Мужская одежда для населения города Гянджа в XIX – XX веках // Гилея: научный вестник. Выпуск, 104 (1), Киев: 2016, ст. 66-69

10. Об одежде и предметах украшения в Гянджи XIX – XX веков // Научные исследования в сфере гуманитарных наук: открытия XXI века. Материалы III международный научный практический конференции. Пятигорск: 2016, ст.193-197.

11. Gəncənin XIX–XX əsr ənənəvi qadın geyimləri // GDU. Elmi Xəbərlər. I cild, Gəncə: 2016, s. 216-221

12. Gəncənin XIX –XX əsr qadın bəzək nümunələrinə dair // Gənc alimlərin I beynəlxalq elmi konfransı. I hissə, GDU, Gəncə: 2016, s.77-80

Hamzayeva N.Q.

**THE TRADITIONAL MATERIAL CULTURE OF THE CITY OF GANJA IN THE XIX-XX CENTURIES**

**(historical - ethnographic research)**

**SUMMARY**

Dissertation is devoted to one of the pressing problems of the town ethnography of Azerbaijan - the traditional material culture of Ganja.The dissertation consists of the Introduction, four chapters and the Conclusion.

In the "Introduction" of the thesis is grounded the urgency of the issue; goals and objectives, its chronological framework, object and subject, the state of the investigation of the problem, theoretical-methodological and source database, scientific innovation, scientific and practical significance of the research and the structure of the dissertation are illuminated there.

The first chapter of this research is titled as "Factors that influence on the urban settling". This chapter consisting of three sections deals with brief history of the city, which consists of three semi-chapters in this chapter ocerkindən, natural and geographical conditions and everyday life, the ethnic composition of the urban population, social factors that affect the urban environment.

The second chapter of the research titled as "Folk houses" covers four semi-chapters. Here is spoken about the typological features of the houses, forms of these houses, inside order of these houses, household subsidary structures and public buildings.

The third chapter of the dissertation is titled as "The place of traditional meals and drinks in the system of foods".The chapter consisting of four semi-chapters is dedicated to the traditional vegetal, animal, seasonal, ceremonial and festive meals of the Ganjanians. The fourth section of the chapter is titled as "The transformations taking place in the specific features of city's food system".

The fourth chapter of the research is titled as "The garments and ornaments". The chapter covering four sections is dedicated to the materials of the clothes, style and relation to various factors, men's clothing, costumes, women's clothes, decorations and to their modern state.

The "Conclusion" of the dissertation provides with with detailed information on the scientific results obtained in the research, bibliography and informers and list of illustrative materials.

Н. Г. Гамзаева

# ТРАДИЦИОННАЯ МАТЕРИАЛЬНАЯ КУЛЬТУРА ГОРОДА ГЯНДЖА В XIX-НАЧАЛЕ XX ВВ.
## (историко-этнографическое исследование)

## РЕЗЮМЕ

Диссертация посвящена этнографическому исследованию традиционной материальной культуры населения города Гянджа. Работа состоит из введения, четырёх глав, списка использовонной литературы и альбома иллюстраций.

Во введении обосновывается актуальность темы, определяются цель и задачи, базовый источник исследования, степень изученности проблемы, научная новизна и методологические основы исследования.

Первая глава - «Факторы, влияющие на размещение населения города» состоит из трех разделов, где рассматриваются такие вопросы, как природно-географические условия, краткий исторический очерк, хозяйственный быт и этнический состав населения и факторы, влияющие на условия жизни горожан.

Во второй главе - «Народное жилище» речь идет о формах и типологических особенностях, интерьере жилищ и хозяйственных строений.

Третья глава диссертации – «Роль и место традиционной пищи и напитков в системе питания» посвящена традиционному питанию горожан растительного и животного происхождения, праздничному и обрядовому питанию, особое внимание уделяется трансформационным процессам в сфере питания в условиях инноваций.

Четвертая глава - «Одежда и украшения» посвящена особенностям костюма горожан, в частности покроя, материала, их зависимость от различных социально-экономических факторов; рассматривается их современное состояние.

В «Заключении» научно обоснованы выводы автора, изложенные в диссертации в связи с традициями в хозяйстве и быту, в материальной и духовной культуре и семейно-брачных отношениях населения города Гянджа.

Kağız formatı: 60/84 16/1

Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ**

*На правах рукописи*

**НУРЛАНА ГАРИБ кызы ГАМЗАЕВА**

# ТРАДИЦИОННАЯ МАТЕРИАЛЬНАЯ КУЛЬТУРА ГОРОДА ГЯНДЖА В XIX-НАЧАЛЕ XX ВВ.
**(историко-этнографическое исследование)**

**5102.01** – Этнография и Этнология

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ - 2017**